

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 sentyabr 2022-ci il №70 (2681) https://mod.gov.az Qiymәti 30 qəpik


## Dördüncü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin iştirakçılarına

Hörmətli sərgi iştirakçıları və qonaqlar!

Sizi "ADEX-2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin açılışı münasibətilə salamlayır və bütün iştirakçılara uğurlar arzulayıram.

Artıq ənənəvi xarakter almış "ADEX" sərgisi hərbi-texniki əməkdaşlığın inkişafı, ən müasir silah, texnika və texnologiyaların nümayiş etdirilməsi üçün mühüm platformaya çevrilmişdir. Sərgi dünyanın tanınmış hərbi sənaye müəssisələrini, nüfuzlu xarici şirkət və təşkilatları, rəsmi nümayəndə heyətlərini və mütəxəssisləri eyni məkanda toplayaraq işgüzar əlaqələrin qurulması və yeni müqavilələrin imzalanması üçün geniş imkanlar yaradır.

"ADEX-2022" Vətən müharibəsində qazanılmış parlaq qələbədən sonra Azərbaycanın təşkil etdiyi ilk beynəlxalq müdafiə sərgisidir. Tədbirdə real döyüş əməliyyatları zamanı uğurla sınaqdan çıxmış yerli hərbi təyinatlı məhsulların nümayiş etdirilməsi onun əhəmiyyətini daha da artırır.

XXI əsrin müharibəsini aparmış Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi bu gün inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində diqqətlə öyrənilir. Son dərəcə çətin relyef şəraitində ən müasir döyüş silahlarını tətbiq etməklə Azərbaycan Silahlı Qüvvələri düşmənin möhkəmləndirilmiş müdafiə xətlərini yarmış və sürətlə irəliləyərək cəmi 44 gün ərzində onu təslim olmağa məcbur etmişdir. Azərbaycanın tarixi qələbəsi göstərdi ki, hərbi sahədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün müasir ordu quruculuğu, ölkənin hərbi qüdrətinin yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi son dərəcədə əhəmiyyətlidir.

Azərbaycan Respublikası öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına və maddi-texniki bazasının gücləndirilməsinə daim xüsusi önəm verir. Ölkəmiz hərbi-texniki sahədə dünyanın qabaqcıl dövlətləri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, milli müdafiə sənayesi sahəsində də imkanlarını genişləndirir. Hazırda Azərbaycan aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın 50-dən çox ölkəsinin aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir, ölkəmizin müdafiə sənayesi müəssisələrində istehsal olunan məmulatların həcmi ildən-ilə artır.

Biz, qarşıdan gələn dövrdə də müasir silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsalına xüsusi diqqət yetirməklə Azərbaycan Silahlı Qüvvələrini və ölkəmizin müdafiə qabiliyyətini daha da gücləndirəcəyik.

Əminəm ki, "ADEX-2022" sərgisi faydalı təcrübə mübadiləsinin aparılmasına, yeni əməkdaşlıq əlaqələrinin qurulmasına əlverişli imkan yaradacaq və Azərbaycanın müdafiə sənayesinin elmi-texnoloji potensialının artırılmasına öz müsbət töhfəsini verəcəkdir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 sentyabr 2022-ci il

## Prezident İlham Əliyev IV "ADEX" və XIII "Securex Caspian" sərgiləri ilə tanış olub



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri ilə tanış olub.***

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı Bakı Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərlə tanış oldu.

Müdafiə naziri Zakir Həsənov, müdafiə sənayesi naziri Mədət Quliyev və Türkiyənin Baş Qərargah rəisi Yaşar Güler dövlətimizin başçısına sərgi haqqında məlumat verdilər.

Bildirildi ki, builki sərgidə dünyanın 30-a yaxın ölkəsindən 200-dən artıq şirkət iştirak edir. Müasir silah və texnikanın nümayiş etdiriləcəyi bu genişmiqyaslı tədbir pandemiyanın yaratdığı məcburi fasilədən sonra yenidən keçirilir. Sərginin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı Zəfərdən sonra ilk dəfə təşkil olunur. Sərgidə Azərbaycan Ordusunun Qələbəsində müstəsna rol oynamış ölkənin hərbi-sənaye kompleksinin gücü və qüdrəti, müasir silahlar nümayiş olunur.

Qeyd edildi ki, "ADEX" müdafiə sərgisinin iştirakçıları arasında Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorunun aparıcı şirkətləri var. İlk dəfə İordaniyadan olan şirkətlər də sərgiyə qatılıb. Bu il 8 ölkə milli stendləri ilə iştirak edir. Bir çox ölkələr öz milli ekspozisiyalarının sahələrini böyüdüblər.

Prezident İlham Əliyev Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Milli Təhlükəsizlik Qüvvələrinin ehtiyaclarını ödəmək üçün müdafiə təyinatlı məmulatların, döyüş sursatlarının, zirehli hərbi texnikanın və digər vasitələrin yaradılması, istehsalı, təkmilləşdirilməsi, təmiri, utilizasiyası, idxalı-ixracına və xarici bazarlarda satışına cavabdeh olan nazirliyin pavilyonunda son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb. Döyüş kəşfiyyat texnikası, çoxməqsədli, kəşfiyyat və zərbə pilotsuz uçuş aparatları, müxtəlif çaplı atıcı silahlar, mühəndislik texnikaları və digər hərbi texnikalar sərginin maraq doğuran eksponatları sırasındadır.

Türkiyə Respublikası sərgidə ən çox şirkətlərlə təmsil olunan ölkələrdən biridir. Müdafiə sənayesində ən müasir və qabaqcıl texnologiyalardan geniş istifadə edən qardaş Türkiyə sərgidə 42 şirkət ilə təmsil olunub. Bu şirkətlərdən biri olan "HAVELSAN" 1982-ci ildə Türkiyə Silahlı Qüvvələrinin Gücləndirilməsi Fondunun tərkibində yaradılıb. Şirkət təkcə müdafiə, təhlükəsizlik və İT sahələrində texnologiyaları inkişaf etdirməklə kifayətlənmir, həm də özünün yüksək texnologiyalı proqram həllərini hazırlayır və simulyatorlar istehsal edir. "HAVELSAN", həmçinin yeni nəsil texnologiyalar, xüsusilə də süni intellektlə əlaqəli məhsullar, layihələr və sistemlər hazırlayır. Prezident İlham Əliyev şirkətin məhsulları ilə tanış oldu.

Türkiyəni təmsil edən "Roketsan" şirkəti 1988-ci ildə qurulub. Şirkət müxtəlif növ raketlər, reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, istiqamətləndirmə-idarəetmə sistemləri, döyüş başlıqları, mexaniki hissələr, alqoritm və proqram təminatını hazırlayır və istehsal edir, onları quru, hava və dəniz platformaları ilə birləşdirir. Eyni zamanda, bu sistemlərə maddi-texniki dəstək verir, raket yanacağı istehsal edir, ballistik mühafizə layihələri hazırlayır və həyata keçirir, eləcə də öz müəssisələrində kosmik raketləri işləyib hazırlayır.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev IV “ADEX” və XIII “Securex Caspian” sərgiləri ilə tanış olub

**(Əvvəli 1-ci səhifədə)**

Dövlətimizin başçısı Pakistan İslam Respublikasının pavilyonları ilə də tanış oldu. Bildirildi ki, ölkəmizlə hərbi əməkdaşlıq edən Pakistanda istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir. Bildirildi ki, "Pakistan Ordnance Factories" (POF) şirkəti beynəlxalq standartlara uyğun geniş çeşiddə silah-sursat istehsal edən ən böyük dövlət müdafiə sənayesi kompleksidir. Pakistan Silahlı Qüvvələrinin və hüquq-mühafizə orqanlarının aparıcı təchizatçısı olmaqla yanaşı, POF dünyanın bir çox ölkəsinə məhsul ixrac edir. POF-un törəmə şirkətləri məhsullarına görə yüksək nüfuza malikdir. "Pakistan Ordnance Factories" şirkəti ISO-9001, ISO-14001, ISO-17025 və OHSAS 18001 kimi beynəlxalq keyfiyyət sertifikatlarını əldə edib.





Qlobal Sənaye və Müdafiə Həlləri (GIDS) şirkəti çoxsaxəli hərbi tətbiqlər üçün məhsullar təklif etməklə, ölkənin ən böyük müdafiə istehsalat bölmələrini, əsas tədqiqat və inkişaf fəaliyyətlərinin mərkəzini təmsil edən Pakistanın dövlətə məxsus ilk müdafiə konqlomeratıdır. GIDS şirkəti tədqiqat və inkişaf fəaliyyətlərinə böyük məbləğdə sərmayə yatırır, Pakistanı yüksək texnologiya sahələrində aparıcı investor edir.

Türkiyənin pilotsuz uçuş aparatı istehsalçısı olan "Lentatek" pilotsuz sistemlər sahəsində uğurlar əldə etmiş şirkətlərdən biridir. Dövlətimizin başçısına şirkətin istehsalı olan pilotsuz uçuş aparatları, hidrogen və yanacaq texnologiyaları, kosmik texnologiyalar və digər istehsalat sahələri barədə məlumat verildi.

"Dearsan" gəmiqayırma və gəmi təmiri zavodu inşa edildiyi 1980-ci ildən Türkiyənin ən mühüm müəssisələri arasındadır. "Dearsan" dəstək gəmisi, korvet (gözətçi) tipli gəmilər, patrul gəmiləri, çevik hərəkət qayıqları, desant gəmiləri, hidroqrafiya və okeanoqrafiya elmi tədqiqat gəmiləri, minaaxtaran gəmilər, özü idarəolunan qayıqlar, mülki nəqliyyat gəmiləri və həmçinin gəmiqayırma zavodunun tikintisi və ya modernləşdirilməsi, dəniz su sərhədlərinin mühafizə sistemləri, sursat istehsalı zavodu kimi müxtəlif mürəkkəb hərbi platformaların tikintisi üzrə ixtisaslaşıb.

Dövlətimizin başçısı İspaniyanın sərgidəki pavilyonu ilə tanış oldu. Pavilyonda bu ölkəni "Indra" şirkəti təmsil edir. Şirkət dünyanın aparıcı mühəndislik şirkətlərindən biridir və rəqəmsal sənayedə liderdir. Radar, elektron müdafiə, idarəetmə və kommunikasiya texnologiyaları üzrə ixtisaslaşmış şirkət öz sistemlərində süni intellekt və virtual reallıqdan istifadə edir. "Indra" şirkəti Avropanın ən böyük və ən qabaqcıl müdafiə proqramı olan FCAS-ın İspaniyadakı milli sənaye koordinatorudur.



Maşınqayırma və kimya sənayesi müəssisəsi yüksək texnologiya və təcrübəyə üstünlük verən Türkiyənin müdafiə sənayesində lider qurumlardan biridir. Müəssisənin məhsulları yüksək keyfiyyəti ilə seçilir. Bu müəssisə müştərilərə hərbi sursatlar - raketlər, silahlar, partlayıcı maddələr, barıt, pirotexnika və qaz maskaları kimi geniş çeşiddə məhsullar təklif edir.

"Turkish Aerospace" sabit və hərəkətli hava platformalarından pilotsuz uçuş aparatı və peyklərə qədər inteqrasiya olunmuş aerokosmik sistemlərin dizaynı, işlənib hazırlanması, müasirləşdirilməsi, istehsalı, inteqrasiyası və istifadə dövründə dəstək sahəsində Türkiyənin texnologiya mərkəzidir. Aerokosmik və müdafiə sahəsində ən yaxşı yüz qlobal şirkət arasında yer alan "Turkish Aerospace" tərəfindən dizayn və istehsal edilən bütün məhsullar üçün inteqrasiya olunmuş logistika xidməti də göstərilir.



Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "ASSAN"dır. Şirkət silah və döyüş sursatlarının, o cümlədən onların tərkib hissələrinin, yarımbloklarının, ləvazimatlarının və ehtiyat hissələrinin qabaqcıl texnologiya ilə müasir müəssisələrdə beynəlxalq standartlara uyğun dizaynı, layihələndirilməsi və istehsalı imkanlarına malikdir.

Prezident İlham Əliyev İran İslam Respublikasının pavilyonuna da baxdı. Qeyd olundu ki, İran Aviasiya Sənaye Təşkilatı (IAIO) bu ölkənin mülki və hərbi aviasiya sənayesini planlaşdırmaq, nəzarət və idarə etmək məqsədilə 1966-cı ildə yaradılmış dövlət korporasiyasıdır. Şirkət təyyarə və aerokosmik məhsullar istehsal edir.

Pakistan Aeronavtika Kompleksinin stendində təyyarə və aviasiya sistemləri üçün texniki xidmət vasitələri, simulyatorlar və təlim sistemləri nümayiş olunur.

Məlumat verildi ki, Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi müdafiə təyinatlı məmulatların - pilotsuz uçuş aparatlarının, kəşfiyyat-patrul maşınlarının, döyüş modullarının, müxtəlif növ simulyasiya sistemlərinin işlənilməsi, ölkəmizin güc strukturlarının tələblərinə uyğun modernləşdirilməsi, seriyalı istehsalın təşkili və ixracı istiqamətində fəaliyyət göstərir.



Azərbaycan Prezidentinə məlumat verildi ki, Türkiyənin "Aselsan" şirkəti artıq dördüncü dəfədir "ADEX" sərgisində iştirak edir. Şirkətin təqdim etdiyi məhsullar maraqla qarşılanır. Fəaliyyətinə radiorabitə cihazı ilə başlayan şirkət bu gün müdafiə və təhlükəsizlik sahəsində 500-dən çox adda məhsul istehsal edir.

İsrailin milli pavilyonlarında nümayiş edilən eksponatlarla tanış olan Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, müdafiə, aerokosmik və kommersiya bazarlarında lider olan İsrail Aerokosmik Sənayesi milli müdafiə və təhlükəsizlik problemlərini həll etmək üçün ən müasir texnologiyadan və onilliklər ərzində sübut edilmiş döyüş təcrübəsindən istifadə edir.

"RAFAEL Qabaqcıl Müdafiə Sistemləri" MMC İsraildə 70 ildən artıqdır ki, hava, quru, dəniz və kosmos üçün kibertəhlükəsizlik sistemlərinin yaradılması ilə məşğuldur. Şirkət təyyarə və aviasiya vasitələri, raket və kosmik qurğular üçün sistem və komplekslər, zirehli döyüş maşınları, radioelektron, peyk, GPS və GSM sistemləri üzrə fəaliyyət göstərir.

Sərgidə İsrailin "Plasan" şirkəti də öz məhsullarını təqdim edir. Şirkət təkərli və tırtıllı döyüş maşınları üçün geniş çeşiddə robot texnologiyaları üzrə ixtisaslaşıb.

**(Ardı 3-cü səhifədə)**



# Prezident İlham Əliyev IV "ADEX" və XIII "Securex Caspian" sərgiləri ilə tanış olub

(Əvvəli 2-ci səhifədə)

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) də sərgidə fəal iştirak edir. Fəaliyyət illəri ərzində ANAMA ölkə daxilində və xaricində bir sıra layihələr həyata keçirib. Agentlik hazırda işğaldan azad edilən Qarabağda mina və partlamamış hərbi sursatlardan təmizləmə əməliyyatları həyata keçirir.

Dövlətimizin başçısı, həmçinin Qazaxıstanın Sənaye İnfrastrukturunun İnkişafı Nazirliyinin pavilyonu ilə də tanış oldu.



Rusiya Federasiyasını "ADEX-2022" sərgisində 13 şirkət təmsil edir. "Rosoboronexport" Rusiyanın müdafiə sahəsi ilə bağlı məhsulların, xidmətlərin və texnologiyaların tam çeşidinin ixracı üzrə yeganə dövlət agentliyidir. Qlobal silah bazarında liderlərdən biri olan "Rosoboronexport" Rusiyanın bu sahədə məhsul ixracının 85 faizdən çoxunu təşkil edir. Agentlik Rusiyanın müdafiə sənayesi üzrə 700-dən çox müəssisə və təşkilatı ilə əməkdaşlıq edir.

Bolqarıstan Respublikasının pavilyonu ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, "Transmobil" şirkəti 1990-cı ildə Sofiya şəhərində yaradılıb. Şirkət yüksəksürətli kinetik sursatların, kumulyativ-termobarik qumbaraatanların, yüksək effektivliyə malik artilleriya sursatlarının və minaatanların istehsalı üzrə fəaliyyət göstərir.

Sərgidə Ukraynanı təmsil edən "Motor Sich" Açıq Səhmdar Cəmiyyəti hərbi texnika üzrə layihələndirmə, təkmilləşdirmə, istehsal, əsaslı təmir və texniki dəstək sahəsində ixtisaslaşmış çoxşaxəli müəssisədir. ASC-nin istehsal etdiyi məhsullar dünyanın 100-dən çox ölkəsində uğurla istifadə olunur.

Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının sərgidəki pavilyonunda da oldu. Məlumat verildi ki, bu ölkəni təmsil edən "CETC International Co. Ltd" "Çin Elektron Texnologiyalar Qrupu Şirkəti"nin (CETC) beynəlxalq biznes və əməkdaşlıq üzrə əsas platformasıdır. CETC 2021-ci ildə "Fortune Global 500" sıralamasında 354-cü yerdə qərarlaşıb.

Dövlətimizin başçısı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin "AZAD Sistemlər" müəssisəsinin istehsal etdiyi hərbi texnika ilə tanış oldu.

Sonra Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzinin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxdı.

Qeyd edək ki, "ADEX" və "Securex Caspian" sərgiləri üçün geniş işgüzar proqram hazırlanıb. Sərgilərin keçiriləcəyi üç gün ərzində Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsi, pilotsuz sistemlərinin inkişaf perspektivləri və tətbiq sahələri üzrə, müasir silah sistemləri, sursatlar və onların təyinatı, zirehli döyüş nəqliyyat vasitələrinin müasir döyüş mühitində rolu və digər aktual mövzular üzrə sessiyalar keçiriləcək.

Beləliklə, IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində ən müasir silahların nümayişi və yeni müqavilələrin bağlanması üçün əla platformaya çevriləcək.







# "Hazırda pilotsuz uçuş aparatlarının tətbiqi kütləvi xarakter alıb"

*Müasir dünyada yeni texnologiyaların inkişafı gün-dən-günə vüsət alır. Hazırda pilotsuz uçuş aparatlarının tətbiqi kütləvi xarakter alıb. Pilotsuz uçuş aparatlarının istifadəsinə dair məlumatlar XX əsrin 30-40-cı illərinə təsadüf edir. Əsas olaraq onlardan döyüş təyyarələrinin, zenit-raket komplekslərinin təlimlərində uçan hədəf kimi istifadə olunması nəzərdə tutulub.*

AZƏRTAC xəbər verir ki, bu barədə sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən "ADEX 2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində müasir dövrdə pilotsuz uçuş aparatlarının əhəmiyyəti ilə bağlı keçirilən sessiyada Müdafiə Nazirliyinin nümayəndəsi Səxavət Əsədov bildirib.

O qeyd edib ki, müasir pilotsuz uçuş aparatlarının kütləvi istehsalına XX əsrin 40-50-ci illərində başlanıb, xüsusən soyuq müharibə dövründə geniş vüsət alıb. Bu dönəmdə pilotsuz uçuş aparatlarının kəşfiyyat, izləmə, uçuş tapşırıqları yerinə yetirilib.

Ötən əsrin 90-cı illərindən etibarən peyk naviqasiya sistemlərinin inkişaf etdirilməsi ilə pilotsuz uçuş aparatlarının imkan və qabiliyyətlərində yeniliklərə nail olunub. Texnologiyaların inkişafı, döyüş təcrübələri, pilotsuz uçuş aparatlarının istifadəsində baxışın dəyişməsi ilə kəşfiyyat funksiyalı pilotsuz uçuş aparatlarının müstəqil zərurət vasitəsinə çevrilməsi ilə nəticələnib.

Hazırda Beynəlxalq Mülki Aviasiya Təşkilatı tərəfindən təchizat və təminatına görə bütün parametrlərini özündə əks etdirən pilotsuz uçuş aparatları universal təsnifatın özüdür. Buraya daxildir əsasən - birinci sinif, ikinci sinif, üçüncü sinif, uçuş ağırlığına görə, uçuş hündürlüyünə görə və idarəetmə məsafəsinə görə. Hər bir ölkə öz texnoloji imkanlarına, güc strukturlarının ehtiyaclarını nəzərə alaraq müxtəlif tip pilotsuz uçuş aparatlarının istehsalı və ya təchizatını həyata keçirə bilir. Azərbaycanda pilotsuz uçuş aparatlarının altı növü istehsal olunur. Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində bu istehsalat hazırda davam etdirilir.

# "Zirehli döyüş texnikaları yüksək döyüş qabiliyyətinə malikdir"

Sentyabrın 6-da Bakıda keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri çərçivəsində "Zirehli döyüş nəqliyyat vasitələrinin müasir döyüş mühitində rolu" mövzusunda sessiya keçirilib.

AZƏRTAC xəbər verir ki, sessiyada məruzə ilə çıxış edən Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin nümayəndəsi polkovnik-leytenant Elnur Abdullayev zirehli döyüş texnikaları haqqında məlumat verib.

Qeyd edib ki, döyüşdə iştirak edən əsas zirehli texnikalardan biri də zirehdən hazırlanmış tanklardır. Ağır döyüş texnikası sayılan tanklar çox mükəmməl olmaqla yüksək döyüş qabiliyyətinə malikdir. Tanklar əsasən, yüngül, orta və ağır olmaqla 3 növə ayrılır.

E.Abdullayev, həmçinin bildirib ki, zirehli döyüş nəqliyyat vasitələrindən biri də piyadaların döyüş maşınıdır. Bu döyüş maşınları isə düşmənin şəxsi heyətini və canlı qüvvəsini məhv etməklə yanaşı, döyüşdə xüsusi çeviklik göstərməyə qadirdir. Sözügedən zirehli texnikaların üstün cəhətlərindən biri də onların suda və quruda hərəkət etməsidir.

Məruzəçi sessiya iştirakçılarını ölkəmizin hərbi sənayesi tərəfindən istehsal olunan və Qarabağ döyüşlərində uğurla sınaqdan çıxmış müasir zirehli döyüş texnikaları barədə də məlumatlandırıb.

# "Ordumuzla yanaşı, milli hərbi sənayemiz də güclənməkdə və inkişaf etməkdədir"

Azərbaycan Ordusu ilə yanaşı, milli hərbi sənayemiz də güclənməkdə və inkişaf etməkdədir. Bakı Ekspo Mərkəzindəki sərgi bunu bir daha sübut etdi.

Bunu AZƏRTAC-a Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, hərbi-siyasi ekspert, polkovnik Cəlil Xəlilov Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri ilə bağlı açıqlamasında bildirib.

O qeyd edib ki, Bakı Ekspo Mərkəzində baş tutan sərgi bir çox baxımdan mühüm əhəmiyyətə malikdir. Bu sərgi hər şeydən əvvəl Azərbaycanın hərbi sənayesinin gücünü, onun sürətli inkişafını göstərdi: "Sərgidə Azərbaycan istehsalı olan çoxlu silah-sursat, hərbi avadanlıqlar nümayiş etdirildi ki, bu da ölkəmizin hərbi qüdrətindən, onun milli hərbi sənayesinin perspektivindən xəbər verir. Bütün bu inkişaf prosesləri Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və bilavasitə qayğısı ilə baş verir. Prezident İlham Əliyevin sərgidə iştirakı, orada nümayiş olunan silahlarla ətraflı tanış olması bu qayğının göstəricisidir".

Cəlil Xəlilov bildirib ki, IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgilərinin daha bir önəmi dünyanın qabaqcıl dövlətlərinin, iri şirkətlərinin bu sərgilərə böyük maraq göstərməsi ilə bağlıdır: "Bir faktı xatırladım ki, Bakı Ekspo Mərkəzində IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgilərində dünyanın 30-a yaxın dövləti, o cümlədən 200-dən çox şirkət iştirak edib. Onlar bu sərgidə istehsal etdikləri ən müasir hərbi texnikalarını, silah-sursatlarını, hərbi avadanlıqlarını nümayiş etdiriblər. Sərgidə Türkiyə, Pakistan kimi qardaş dövlətlərlə yanaşı, Rusiya, Çin, Fransa, İtaliya və s. kimi dövlətlər də iştirak edir. Bakı Ekspo Mərkəzində keçirilən sərgiyə olan bu maraq, həm də dövlətimizin nüfuzundan, beynəlxalq müstəvidə ona olan diqqətdən xəbər verir və hər bir azərbaycanlı üçün qürurvericidir".

# Azərbaycan Respublikasının müdafiə naziri “ADEX” və “Securex Caspian” sərgiləri çərçivəsində bir sıra görüşlər keçirib






Sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Yaşar Güler ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında regional təhlükəsizlik hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlıq, qarşılıqlı səfərlərinin təşkili, eləcə də maraq doğuran digər məsələlər müzakirə olunub.

Tərəflər birgə hərbi təlimlərdə texnoloji innovasiyalardan istifadə edilməsinin əhəmiyyətini xüsusi vurğulayıblar.

* * *



Sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Ruanda Respublikasının müdafiə naziri general-mayor Murasira Albert ilə görüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

* * *





Sentyabrın 6-da müdafiə naziri general-polkovnik Zakir Həsənov Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün ölkəmizə gələn Bosniya və Herseqovina Respublikasının müdafiə naziri Sifet Podçiç ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə qarşılıqlı səfərlərin təşkili və digər məsələlər müzakirə edilib.

* * *

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün ölkəmizə gələn Belarus Müdafiə Sənayesi Komitəsinin sədri Dmitri Pantus ilə görüşüb.

Görüşdə tərəflər Azərbaycan ilə Belarus arasında hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri, müasir hərbi texnologiyaların tətbiqi imkanları, təcrübə mübadilələrinin keçirilməsi və qarşılıqlı maraq kəsb edən digər məsələləri müzakirə ediblər.

* * *



Sentyabrın 6-da müdafiə naziri general-polkovnik Zakir Həsənov "ADEX-2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Qazaxıstan Respublikasının müdafiə nazirinin müavini general-leytenant Ruslan Şpekbayev ilə görüşüb.

Bakı Ekspo Mərkəzində keçirilən görüşdə Azərbaycan ilə Qazaxıstan arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsinin, eləcə də ekspert qrupları səviyyəsində qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyi bildirilib və maraq doğuran digər məsələlər müzakirə olunub.

* * *

Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2022" 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi davam edir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov sərgidə iştirak etmək üçün ölkəmizdə səfərdə olan İsrailin "RAFAEL" şirkətinin rəhbəri Yoav Har-Even ilə görüşüb.

Görüşdə Azərbaycan ilə İsrail arasında hərbi əməkdaşlığın güclənməsinin vacibliyi və dövlətlərimizin regional təhlükəsizliyə verdiyi töhfələr barədə ətraflı fikir mübadiləsi aparılıb, eyni zamanda, Azərbaycan-İsrail hərbi əlaqələrinin möhkəmlənməsində bu cür görüşlərin və qarşılıqlı səfərlərin zəruriliyi xüsusi vurğulanıb.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Quru Qoşunlarında olub



*Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Quru Qoşunlarında olub.*

Baş Qərargah rəisi Quru Qoşunlarının idarə heyəti ilə xidməti müşavirə keçirib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müşavirədə Quru Qoşunlarında görülən işlərin təhlili aparılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqlar toplantı iştirakçılarına çatdırılıb.

Müdafiə nazirinin birinci müavini döyüş hazırlığının və hərbi qulluqçuların peşəkarlıq səviyyələrinin daha da artırılması, silahlanmaya yeni qəbul edilən silah və döyüş texnikasının effektiv tətbiqi məqsədilə keçirilən təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılması və texnoloji innovasiyalardan istifadə edilməsi ilə əlaqədar müdafiə nazirinin göstərişlərini aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırıb.



Müşavirədən sonra Döyüşü idarəetmə məntəqəsinə (DİM) gələn Baş Qərargah rəisinə məruzə olunub ki, burada müasir döyüş üsulları nəzərə alınaraq digər qoşun növləri ilə qarşılıqlı əlaqədə komanda idarəetmənin təşkili üçün zəruri infrastruktur yaradılıb.

Sonra general-polkovnik Kərim Vəliyev, müdafiə nazirinin müavini - Quru Qoşunlarının komandanı general-leytenant Ənvər Əfəndiyev, Milli Müdafiə Universitetinin rektoru general-leytenant Heydər Piriyev və digər yüksək rütbəli zabitlər Quru Qoşunlarının Ümumqoşun Təlim Mərkəzinə gələrək ilk dəfə təşkil edilən "Zabit komando başlanğıc kursu"na cəlb olunan gənc leytenantlarla görüşüblər.




Baş Qərargah rəisinə məruzə olunub ki, hərbi qulluqçuların taktiki-xüsusi hazırlıqlarının inkişaf etdirilməsi məqsədilə keçirilən məşqlər müasir döyüş üsulları nəzərə alınmaqla tədris olunur.

Ordumuzun Türkiyə Silahlı Qüvvələrinin modelinə uyğunlaşdırılması istiqamətində görülən tədbirlər çərçivəsində gənc zabitlərin komando kursuna cəlb olunmasının hərbi qulluqçuların peşəkarlıq səviyyələrinin artırılmasında müsbət təsir göstərəcəyi xüsusi qeyd edilib.

Daha sonra yaşayış məntəqələrində döyüş və məntəqələrin şərti düşməndən təmizlənməsi tapşırığının icrası üzrə təlim epizodları izlənilib.

Gənc zabitlər qarşısında çıxış edən Baş Qərargah rəisi onlara hərbi elmlərə yiyələnmək, eləcə də fiziki hazırlıqlarını artırmaqla peşəkar və nizam-intizamlı komandir kimi formalaşaraq gələcəkdə tabeliklərindəki şəxsi heyətə nümunə olmaları istiqamətində tövsiyələr verib, gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonda general-polkovnik Kərim Vəliyev hərbi qulluqçuların qayğıları ilə maraqlanıb və onlarla birgə nahar edib.





# Bakı Ekspo Mərkəzində "Müasir texnoloji innovasiyaların hərbi tibb təminatında əhəmiyyəti" mövzusunda sessiya keçirilib

*"ADEX-2022" Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Bakı Ekspo Mərkəzində "Müasir texnoloji innovasiyaların hərbi tibb təminatında əhəmiyyəti" mövzusunda sessiya keçirilib.*




AZƏRTAC xəbər verir ki, sessiyada Müdafiə Nazirliyinin Tibb İdarəsinin tibb xidməti mayoru Hamlet Hüseynov çıxış edərək müasir texnoloji innovasiyaların hərbi tibb təminatında önəmindən danışıb. Bildirilib ki, tibbi innovasiya dedikdə hərb sahəsində tibbi innovasiyanın tətbiqi, tibb işçilərinin, həkimlərin peşəkarlığı və avadanlıqların yüksək texnologiyalarla vəhdəti nəzərdə tutulur. Bu baxımdan həkimlərimizin yüksək keyfiyyətli və müasir avadanlıqlarla təminatı vacib məsələlərdəndir.

"Bu ikisi vəhdət təşkil etdiyinə görə bizdə bütün növ əməliyyatlar xəstəxanalarda icra olunmaqdadır. Bunların hamısının nəticəsini ordu olaraq, mülki vətəndaşlarımız daxil hər kəs görür. Həkimlərimiz həm ölkə daxilində, həm də xaricində yüksək ixtisaslı kurslardan keçir, yüksək səviyyədə təhsil alır, müasir avadanlıqların köməyi ilə yüksək nəticələr qazanırlar. Xatırladım ki, Bakıdakı hospitallarda bütün növ əməliyyatlar icra olunur. Bizdə ən çox döyüş yaralanmaları, odlu silah, partlayış travmaları kimi əməliyyatlar olur və yüksək nəticə ilə icra edilir. Yalnız hərbçilərimiz yox, mülki şəxslərimiz də bizim əməliyyatlardan yararlana bilərlər", - deyə o vurğulayıb.

# Azərbaycan və Almaniya Müdafiə nazirlikləri arasında ikitərəfli danışıqlar aparılıb



"Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Almaniya Federativ Respublikası Federal Müdafiə Nazirliyi arasında 2022-ci il üçün ikitərəfli əməkdaşlıq Proqramı"na uyğun olaraq Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində hər iki qurum arasında danışıqlar keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tərəflər ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də regional və beynəlxalq təhlükəsizlik məsələləri barədə ətraflı fikir mübadiləsi aparıblar.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: Vətəni qorumaq şərəfdir. Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi.**

**Suallar:**

**1. Vətəni qorumaq şərəfdir.**

**2. Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi.**

### Vətəni qorumaq şərəfdir

Vətən ancaq üzərində gəzdiyimiz, yaşadığımız torpaq parçası deyil. Özünün bayrağı, müstəqilliyi, suverenliyi, milli dövlət himni, sərhədləri olan torpağa Vətən deyilir. Vətən azadlıqdır. Torpağın Vətən olması üçün düşmənlərlə mübarizə aparmaq, onun üzərində zəfər qazanmaq lazımdır. Vətən xalqın qorunması üçün vacib müqəddəs dəyərlərindən biridir. Xalq yalnız öz Vətənini qorumaqla gələcəyinə təminat verə bilər. Vətənə olan sevgimiz bizi ucaldır. Vətənin müdafiəsi inancla, imanla olmalıdır.

Vətən bir millətin üzərində yaşadığı coğrafiyadır. Torpağı Vətən edən millətin onda yaşadığı tarix, onunla qurduğu mədəniyyət əlaqələridir. Vətən millətin doğulduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də Vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik. Vətən həyata havasını tənəffüslə başladığımız yerdir. Vətən gözümüzün dünyada ilk gördüyü torpaqdır. Vətən bədənimizin bir parçasıdır. Vətən atalarımızın qəbiristanlığı, övladlarımızın dünyaya gəldiyi yerdir. Vətəni sevmək sadəcə torpağı sevmək deyil, Vətənin daşını, havasını, suyunu sevmək deməkdir.

Vətənimiz Azərbaycana hücum varlığımıza, birlik-bərabərliyimizə, azadlığımıza edilən hücumdur. Buna görə Vətənimiz Azərbaycanın düşmənlərinə qarşı ayıq-sayıq olmaq, onlarla mübarizə etmək ən böyük və ümdə vəzifəmizdir. Bu vəzifəni yerinə yetirərkən ölmək həyatdan şərəflə ayrılmaq, şəhid olub ən uca mərtəbələrə çatmaqdır, yaralanmaq isə şərəflə dönməkdir, qazilikdir. Sülh zamanında onun abadlığına çalışmaq, maddi-mənəvi inkişaf və yüksəlişini hədəf və məqsəd seçməkdir. Xeyirli olan işləri yaymaq, vətəndaşlara kömək etmək, Vətənin səadəti üçün səy göstərmək, onun möhkəmliyini və əmin-amanlığını təmin etməyə çalışmaqdır.

Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl Azərbaycanımızı, onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olmalıyıq. Çünki Azərbaycan hər nə bahasına olursa-olsun, müdafiə etmək məcburiyyətində olduğumuz, şəhidlərimizin uğrunda can verib, qanlarıyla suladığı, mənəviyyatı, dili, bayrağı, mədəniyyəti və əxlaqı bir olan millətimizin üzərində yaşadığı torpaqdır.

Azərbaycan strateji cəhətdən əlverişli mövqedə yerləşməklə yanaşı, iri həcmdə təbii sərvətlər ehtiyatına sahibdir. Buna görə ölkəmizi ələ keçirməyə çalışan qüvvələr həmişə fürsət axtarırlar. Tarixin ayrı-ayrı dönəmlərində Azərbaycan həmişə yadellilərin hücumlarına məruz qalıb. Lakin torpaqlarının müdafiəsini hər şeydən üstün bilən atalarımız Vətənimiz Azərbaycanı canları bahasına qoruyub bizə əmanət ediblər. Verilən vədə əməl etmək lazımdır, bu bizim dinimiz, inancımız, insanlığımız gərəyi üzərimizə yüklədiyimiz ən ali və müqəddəs vəzifə olmalıdır. Çünki min illərdir hakimiyyətimizi davam etdirdiyimiz bu torpaqları gələcəyə aparmaq lazımdır, onu başqa xalqların əsarəti altına atmaq insanlığa sığmaz. Heç bir halda Vətənin müdafiəsindən geri çəkilməməliyik, ən çətin anlarda belə bayrağımızı yüksəkliklərə qaldırmalı, ölkəmizin adının ən yaxşıların sırasında çəkilməsi naminə ən ağır şəraitlərdə belə çalışmaqdan geri durmamalıyıq. Hər birimiz Vətənimiz Azərbaycanın könüllü əsgərləriyik. Biz Vətənimiz Azərbaycana xidmət borcunu bu torpağa olan mənəvi borc kimi verməliyik. Biz həyatımızın sonuna kimi Vətənimiz Azərbaycana borcluyuq. Azərbaycan bizim qürur yerimizdir. Vətənini düşünən hər bir insan üçün vətənpərvərlik bir ideologiya olmalıdır. Milli şüura sahib olmaq Vətənə məhəbbətdən qaynaqlanır.

Əcdadlarımızın mirasına sahib çıxaraq 44 günlük Vətən müharibəsində bütün dünyaya birliyimizi, Vətənimiz Azərbaycana olan sevgimizi göstərdik. Vətən sevgisiylə mayalanmış igidliklə region üçün təhlükə mənbəyi olan münaqişənin uğurla və ədalətlə həll edilməsi cahana Azərbaycan adlı məmləkəti yenidən tanıtdı.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik, sadəcə, orduda xidmət deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik". Bəli, Azərbaycanın gələcək varlığı naminə nəinki gənclər, hər birimiz vətənpərvər olmalıyıq. Çünki müdafiəsi müqəddəs borcumuz olduğu bu Vətəni qorumaq bizim ən ümdə amalımızdır.

### Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi

Azərbaycanlı olaraq biz əsrlərlə ermənilərin təcavüzünə məruz qalmışıq. XX əsrin sonlarında, bir zamanlar ermənilərin yaşaması üçün köçürüldükləri əzəli Azərbaycan torpağı olan Qarabağa sahib olmaq üçün bu mənfurlar ölkəmizə qarşı hərbi təcavüzə başlamış, etnik təmizləmə siyasəti apararaq soyqırımlar törətmiş, minlərlə dinc əhalini qətlə yetirmiş, bir milyondan artıq azərbaycanlını öz doğma yurd-yuvasından didərgin salmışdılar. Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qalmış və icra olunmamışdır.

2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunduğu vaxtda Ermənistan hərbi təxribata əl ataraq, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri, o cümlədən məktəblər, xəstəxanalar və ibadət yerlərini ağır silahlardan atəşə tutdu. Azərbaycan Silahlı Qüvvələrinin əks-həmləsi nəticəsində düşmənə layiqli cavab verilərək, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altında olan ərazilərinin müəyyən hissəsi azad edildi. Bu döyüşlərdə xalqımızın igid övladlarının göstərdikləri qəhrəmanlıqları və şücaətləri Azərbaycan xalqının heç vaxt erməni işğalı ilə barışmayacağını göstərdi.

2020-ci ilin iyulunda dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş verən hərbi əməliyyatlar isə Azərbaycanın taleyində ciddi dönüş nöqtəsi oldu. Vətən sevgisi döyüş meydanında generalı əsgərdən ayırmadı. Şəhid general-mayor Polad Həşimovun cəsarəti, vətənpərvərliyi, qorxmazlığı Vətən müharibəsinin də qəhrəmanlıq simvoluna çevrildi.

2020-ci ilin iyul, avqust və sentyabr aylarında ardıcıl baş verən təxribatlar nəticəsində yenidən atəşkəs pozuldu, mülki əhaliyə kəşfiyyat-diversiya qrupları tərəfindən hücumlar edildi. 2020-ci ilin 27 sentyabrında Azərbaycanın şəhər və kəndlərinin ağır artilleriyadan bombardmana tutulması Azərbaycan Ordusunun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında uğurlu əks-hücum əməliyyatının başlamasına səbəb oldu. Ölümdən zərrə qədər qorxmayaraq Azərbaycan Respublikasının Ermənistanın işğalına məruz qalmış ərazilərini azad etmək üçün canlarını heçə saymağa belə razı olduqlarını göstərən bu yurdun minlərlə igid övladı Xocalı soyqırımı qurbanlarının, mənfur düşməni belə tanımayan Zəhranın, Aysunun, Mədinənin və neçə belə körpənin intiqamının alınması üçün könüllü cəbhəyə yazıldı. 44 günlük Vətən müharibəsi erməni silahlı qüvvələrinin və Qarabağda fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin darmadağın edilməsi və Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun mərdliyi, qəhrəmanlığı, fədakarlığı sayəsində işğal olunan ərazilərimiz, o cümlədən rayon, şəhər və digər 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ istiqamətində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Digər qoşun növləri və bölmələrimiz ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən xüsusi təyinatlılarımız öz yaralılarını və şəhidlərini döyüş meydanında buraxmayaraq qayalardan dırmaşaraq Şuşada möhkəmlənmiş erməni elit hərbi hissələrinin üç mindən çox canlı qüvvəsinin döyüş texnikalarını qoyaraq qaçmasına məcbur etdi. Təbii coğrafi istehkam olan Şuşanı bir neçə gün ərzində az itkilərlə və şəhərə böyük zərər vurmadan atıcı silahlarla azad edilməsi dünya tarixində görünməmiş döyüş nümunələrindən biridir. Şuşanın düşmən əsarətindən qurtarılması Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi. Qəhrəman Azərbaycan əsgərləri kiçik qüvvə ilə Zəngilanı azad etdi. Cəbrayılda erməni zabitləri Azərbaycan Ordusunun mübarizə əzminin qarşısında aciz qalaraq öz əsgərlərinə döyüşməyin mənasız olduğunu deyərək qaçmışdılar. Hadrutda bir neçə qrupdan ibarət xüsusi təyinatlılarımız 1500 nəfər erməni muzdlusunu qaçmağa məcbur etmişdir.

Biz bu Vətən müharibəsində oğullarımızın qəhrəman ruhunu gördük. Onların qəhrəmanlıqları dillərə dastan oldu, silinməz mürəkkəblə tarixə yazıldı. Çiynində yaralı əsgəri daşıya-daşıya, qar-boran demədən sadəcə irəliyə addımlayan, irəliyə köklənən, öz qanını Vətən naminə axıdan igidlərin şücaəti, dönməzliyi, müzəffərliyi bizə bu qələbəni yaşatdı. Minlərlə igidlər bir əlində silah, bir əlində bayraq sinəsini düşmənə sipər edərək, öz nəfəslərini kəsərək Azərbaycanımıza nəfəs verdilər. Onlara bu dərəcədə böyük cəsarəti, qorxmazlığı verən Vətən eşqi olub. Onlar bizim birlik nişanəmiz, Vətən sevdamız, Azadlıq qələbəmizdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi kimi: "Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi Vətən uğrunda canından keçməyə hazır olan qəhrəmanlarımız var!".

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrin 83 nəfər hərbi qulluqçusuna (onlardan 39 nəfər ölümündən sonra) Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Sərəncamına əsasən "Vətən Müharibəsin Qəhrəmanı" adı verilmişdir.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev 27 sentyabr - Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında "Anım Günü" kimi qeyd olunması ilə bağlı Sərəncam imzalamışdır. Bu addım şəhid ruhlarına, şəhidlərin doğmalarına ali ehtiramın göstəricisidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan Ordusunu yaratdı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev isə onu dünyanın ən güclüləri sırasına çıxardı. Bu ordu qarşısında duran tarixi missiyanı, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin arzusunu və vəsiyyətini yerinə yetirdi. Bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və şəhidlərimizin ruhu rahatdır. Bu qələbə həm də Ulu Öndərin ideyalarının təntənəsidir. Azərbaycan xalqı zəfər çalaraq şanlı qəhrəmanlıq salnaməsi yazdı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# “TurAz Qartalı-2022” təlimində bir sıra tapşırıqlar icra olunub





*"TurAz Qartalı-2022" birgə taktiki-uçuş təlimində döyüş təyyarələri ilə ətrafı tanıma uçuşları icra edilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sonra təlimin planına uyğun olaraq əməliyyat uçuşları yerinə yetirilib.

Uçuşlardan öncə əməliyyatın planı, hava şəraiti və digər texniki məsələlərlə bağlı brifinq təqdim edilib.

Plana əsasən radioelektron mübarizə (REM) vasitələrindən istifadə edərək aldadıcı manevrlərlə şərti düşmənin hava hücumundan müdafiə vasitələrindən yayınmaq və təyin olunan yerüstü hədəflərin



məhv edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Yüksək peşəkarlıq nümayiş etdirən Azərbaycan və Türkiyənin hərbi pilotları qarşıya qoyulan tapşırıqları uğurla icra ediblər.

* * *

Ölkəmizdə keçirilən "TurAz Qartalı-2022" birgə taktiki-uçuş təliminin planına uyğun olaraq növbəti təlim-məşq uçuşları icra olunub.

Ssenariyə əsasən şərti düşmənin hava hücumundan müdafiə vasitələrindən yayınma və yerüstü hədəflərinə havadan zərbə endirmə tapşırıqları hərbi pilotlar tərəfindən uğurla yerinə yetirilib.

Birgə taktiki-uçuş təlimi davam edir.

# Mövqelərimiz yenidən atəşə tutulub

Sentyabrın 6-sı saat 19:50-dən 7-si saat 01:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər rayonunun Yuxarı Şorca və Qarakilsə rayonunun Noravan yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun Zəylik və Laçın rayonunun Əhmədli yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

* * *

Sentyabrın 7-si saat 21:00-dən sentyabrın 8-i saat 04:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər rayonunun Subatan və Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun İstisu və Tovuz rayonunun Ağdam yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Şəmkirdə maarifləndirmə tədbiri keçirilib

*Şəmkir rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimiz və hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsində dini dəyərlərin rolu" mövzusunda tədbir keçirilib.*



AZƏRTAC komitənin saytına istinadla xəbər verir ki, tədbirdə çıxışlar zamanı hərbi qulluqçular arasında vətənpərvərlik ruhunun yüksəldilməsi, milli-mənəvi birliyimiz, Vətən oğullarının doğma el-obaya sədaqəti, mərdliyi və mətinliyindən söhbət açılıb. Vurğulanıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman əsgərlərimiz 30 illik yurd həsrətinə son qoydu. Tarixi Qələbə ilə nəticələnən şanlı Vətən müharibəsi xalqımızın birliyinin göstəricisi oldu. Eyni zamanda, İslam dininin Vətən sevgisinə, vətənpərvərlik hisslərinə həmişə böyük önəm verdiyi də tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

# Laçında mülki şirkətə məxsus ekskavator atəşə tutulub



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sentyabrın 7-si saat 08:10-dan 12:40-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Noravan yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Eyni zamanda, qeyd olunan istiqamətdə bölmələrimizin təminat yollarının çəkilməsi məqsədilə yol işləri aparan mülki şirkətə məxsus texnika da atəşə məruz qalıb.

Şirkətin texnikasına zərər dəysə də, xəsarət alan olmayıb.

Ermənistan silahlı qüvvələrinin növbəti təxribatlarının qarşısını almaq məqsədilə bölmələrimiz tərəfindən cavab tədbirləri görülüb.

Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

Bildiririk ki, dövlət sərhədində yaradılan istinilən qarşıdurmanın nəticələrinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə-Suriya sərhədində dörd terrorçu ələ keçirilib



Türkiyə-Suriya sərhədində terror aktı planlaşdıran dörd terrorçu ələ keçirilib.

Türkiyənin Qaziantep Şəhər Jandarma Komandanlığı və Jandarmanın Suriya İşçi Qrupu tərəfindən həyata keçirilən əməliyyat nəticəsində saxlanılanların İŞİD terror təşkilatının yüksəkvəzifəli şəxsləri olduğu müəyyən edilib. Terrorçuların ünvanlarında aparılan axtarış zamanı çox sayda silah-sursat aşkarlanıb.

## Olaf Şolts Almaniyanın Ukraynaya ən müasir silahlar göndərdiyini bildirib



Almaniya kansleri Olaf Şolts ölkəsinin Ukraynanı döyüşlərdə ehtiyac duyduğu ən müasir silahlarla təchiz etdiyini bildirib.

Almaniya hökumətinin başçısı bu barədə Bundestaqda keçirilən plenar iclasda çıxış edərkən bildirib. Onun sözlərinə görə, Berlin Kiyevi artilleriya və hava hücumundan müdafiə sistemləri ilə təmin edir: "Bu, Ukraynanın şərqində gedən döyüşlərdə lazım olan ən müasir silahdır. Biz bunu nə qədər lazımdırsa davam etdirəcəyik".

Olaf Şolts, eyni zamanda, Almaniyanın Kiyevə silah tədarükü məsələsində fəaliyyətini öz müttəfiqləri ilə əlaqələndirdiyini vurğulayıb.

Avqustun 17-də Almaniya hökuməti Ukraynaya verilən silahların yenilənmiş siyahısını və tədarük planını dərc edib. Siyahıya 15 ədəd "Gepard" özüyeriyən zenit qurğusu, hava hücumundan IRIS-T müdafiə sistemi və üç ədəd "Mars" reaktiv yaylım atəş sistemi daxildir. Bundan başqa Almaniya Ukraynaya xüsusi maşınlarda 20 ədəd 70 millimetrlik raket sistemi, 2 min raket və 60 min 200 ədəd 40 millimetrlik patron tədarükünü planlaşdırır.

## İran genişmiqyaslı hərbi təlimlərə başlayıb



Sentyabrın 7-də İranın Silahlı Qüvvələri İsfahan şəhəri yaxınlığında genişmiqyaslı hərbi təlimlərə başlayıb.

Bu barədə İran Ordusunun nümayəndəsi general Kərim Çeşak məlumat verib. O bildirib ki, 2 gün davam edəcək təlimlərə piyada, hərbi hava qüvvələri cəlb olunub. Ordu hissələri mümkün hücumun qarşısını almaq, əhalini təxliyə etmək, müdafiə sistemini qurmaq üçün məşq edəcəklər. General nəzərə çatdırıb ki, təlimlərdə orduda tətbiq edilən yeni texnologiyalara əsaslanan silahlardan da istifadə olunacaq.

Bu ərəfədə İran Silahlı Qüvvələrinin baş qərargah rəisi general-polkovnik Məhəmməd Baqeri regionda ABŞ Ordusunun yerləşdiyi ölkələrin qərargah rəislərinə məktub ünvanlayıb. General məktubda diqqətə çatdırıb ki, əcnəbilərə arxayın olub təhlükəsizliyi təmin etmək əbəs işdir. M.Baqeri bildirib ki, regiondakı problemləri dostcasına danışıqlarla həll etmək olar. Qeyd olunub ki, regiona başqa dövlətlərin silahlı qüvvələrinin cəlb edilməsi gərginlik yaradır və buna yol vermək olmaz.

## Ukraynada qadınların hərbi xidmətə qeydiyyatı bir il müddətinə təxirə salınıb



Müdafiə Nazirliyi qadınların hərbi xidmətə qeydiyyatını 2023-cü il oktyabrın 1-dək təxirə salıb. Müvafiq əmri nazir Aleksey Reznikov imzalayıb.

Bu barədə Ukrayna müdafiə nazirinin müavini Anna Malyar teleqram səhifəsində məlumat verib. Bununla da oktyabrın 1-dən qadınların xaricə getməsinə heç bir qadağa olmayacaq.

Anna Malyar xatırladıb ki, müvafiq peşəyə yiyələnmiş və ixtisaslı qadınlarının hərbi qeydiyyata alınması qanunla dəqiq tənzimlənir.

Qeyd edək ki, bundan öncə Ukraynada hərbiyə yararlı olan qadınların ölkədən çıxışına qadağa qoyulacağı barədə məlumat verilmişdi.

**AZƏRTAC-ın materialları əsasında**

*İctimai-siyasi hazırlıq*

# Mənəvi-psixoloji hazırlığın təməli Vətən sevgisidir



Şanlı ordumuzun sıralarında xidmət edən hərbi qulluqçularımızın döyüş hazırlığı ilə yanaşı, mənəvi-psixoloji hazırlığını da diqqətdə saxlamaq qarşıya qoyulan əsas tapşırıqlardandır. Buna görə də Azərbaycan Ordusunda təsdiq olunmuş günün nizam qaydalarına əsasən, ictimai-siyasi hazırlıq dərsləri keçirilir, asudə vaxtın səmərəli təşkili üçün mədəni-kütləvi tədbirlər təşkil olunur, şəxsi heyətlə milli-mədəni irsimizin bir parçası olan muzeylər və müxtəlif abidələr ziyarət edilir.

Təbii ki, həyata keçirilən bu tədbirlər nəticəsində Vətəninə və xalqına bağlı cəsur əsgərlər formalaşırlar. 44 günlük haqq savaşımızı layiqincə sonlandıran Azərbaycan əsgəri Ali Baş Komandanının və xalqının etimadını doğruldaraq düşməni tarixi torpaqlarımızdan qovdu. Qazanılan qələbədə mühüm rol oynayan əsas amillərdən biri ordumuzda döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək olması idi. Bu gün tam əminliklə deyə bilərik ki, müasir standartlar çərçivəsində formalaşdırılıb təkmilləşdirilən Azərbaycan Ordusu təkcə arsenalındakı silah-sursat və texnika sarıdan deyil, o cümlədən şəxsi mənəvi-psixoloji hazırlığına görə də dünyada fərqlənir.

"N" hərbi hissəsində ictimai-siyasi hazırlıq məşğələsində iştirak etdik. İdeoloji otağın divarlarında müasir ordu quruculuğumuzun banisi ümummilli lider Heydər Əliyevin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və ordu rəhbərliyinin şəxsi heyətlə görüşlərini əks etdirən fotoşəkillər, dövlət atributlarımızdan ibarət məlumat tablolarının mövcudluğu əsgər üçün kitab guşəsi, hərbi hissədə təbliğat və təşviqat işinin yüksək səviyyədə təşkil olunduğunun göstəricisi idi.

Dərs rəhbəri baş leytenant Orxan Babayev qeyd etdi ki, ordunun qüdrəti onun şəxsi heyətinin döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığı ilə birbaşa əlaqəlidir. "Bunun üçün də komandirlər təkcə hərbi bilikləri dərindən mənimsəmiş təcrübəli əsgər deyil, həmçinin milli-mənəvi dəyərlərə sadiq, yüksək vətənpərvərlik hissinə malik əsgər yetişdirirlər. Mənəvi-psixoloji hazırlığın daim nəzarətdə saxlanılması üçün ictimai-siyasi hazırlıq məşğələlərinin də önəmi böyükdür. Keçirilən dərslərdə öz növbəsində tariximizdən, ordumuzun yaranması və inkişaf mərhələlərindən, nəsillərə örnək qəhrəman oğullarımızdan məlumatlar verilir. Bu da öz növbəsində əsgərin həm dünyagörüşünə, həm də hərbi fəaliyyətini lazımi səviyyədə təşkil etməsinə müsbət təsir göstərir".

Əsgər Elnur Əmiri hərbi xidmətin ona qazandırdığı keyfiyyətlərdən danışdı: "Burada təcrübəli komandirlərimiz sayəsində hərbi biliklərimizi, fiziki hazırlığımızı artırmaqla bərabər milli dəyərlərimiz haqqında məlumat bazamızı möhkəmləndiririk. İctimai-siyasi hazırlıq məşğələsində hərb tariximiz və ordu quruculuğumuz, hərbi nizamnamələr haqqında ətraflı məlumatlar əldə edir, qəhrəman oğullarımızı tanıyırıq".

Əsgər Əkbər Əzimli də ictimai-siyasi hazırlıq dərslərinin təşkili ilə bağlı fikirlərini bizimlə bölüşdü. "Dərs rəhbəri tərəfindən keçirilən məşğələlərdə həvəslə iştirak edir, hər birimiz fərqlənməyə çalışırıq. Burada əsgər yoldaşlarımızla etdiyimiz nümunəvi xidmətlə doğmalarımıza və komandirlərimizə başucalığı gətirmək istəyirik. Keçirilən növbəti məşğələdə öncəki dərslərin də mövzuları sual-cavab edilir. Bundan başqa xidməti ayıq-sayıq təşkil etmək, hərbi sirlərə dərindən yiyələnmək, intizamlı olmaq qarşımızda duran əsas tapşırıqlardandır".

İctimai-siyasi hazırlıq məşğələsinin digər iştirakçıları Çingizxan Bəhrəmzadə və Ramil Həsənovun da fikirlərini öyrəndik. Onların hər biri hərbi xidmətin qazandırdığı keyfiyyətlərin mülki həyatlarında da mühüm rol oynayacağını bildirdilər. Bizimlə söhbət əsnasında qeyd etdilər ki, mənəvi-psixoloji hazırlığın təməli Vətən sevgisidir.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

# Fiziki cəhətdən sağlam əsgər hər döyüş tapşırığına hazırdır

*Hərbi hissənin idman şəhərciyində böyük canlanma var idi. Gənc əsgərlər zabitin rəhbərliyi altında buradakı müasir qurğu və avadanlıqlarda məşq edirdilər. Bir az yaxınlıqda dayanıb onların fiziki hazırlıq məşğələlərini izləyirik. Hiss olunur ki, gənc əsgərlər qısa müddət ərzində zəruri vərdişlərə yiyələniblər. Onlar verilən tapşırıqların tələblərinə uyğun olaraq turnikdə dartınır, paralel qollarda müxtəlif çevik hərəkətlər edirdilər.*



Fiziki hazırlıq məşğələsinə nəzarət edən kapitan Müşfiq Əliyevlə həmsöhbət olduq. Vətən müharibəsinin iştirakçısı olmuş, müxtəlif medallara layiq görülmüş kapitan dedi ki, gənc əsgərlərə məşğələ keçmək, onların fiziki hazırlığını artırmaq çox məsuliyyətli vəzifədir. Bildiyiniz kimi, fiziki hazırlıq məşğələsi döyüş hazırlığının tərkib hissəsidir. Heç kimə sirr deyil ki, istənilən an verilən əmr və tapşırıqları yerinə yetirən əsgər hər şeydən əvvəl cəld və çevik olmalıdır. Cəld olmalıdır ki, döyüş əmrini yerinə yetirəndə təyin olunmuş nöqtəyə vaxtında çatsın. Taktiki-texniki xüsusiyyətlərini mükəmməl şəkildə öyrəndiyi silahla düşmənin istənilən təxribatının qarşısını bir göz qırpımındaca ala bilsin. Buna görə də komandanlıq əsgərlərin fiziki hazırlığı məşğələlərinə böyük önəm verir. Ötən həftələr ərzində gənc əsgərlər idman qurğularında müvafiq tapşırıqları yerinə yetirməyi mükəmməl öyrəniblər. Ona görə də tapşırıqlar qüsura yol vermədən, cəld hərəkətlərlə icra olunur. Deməli, onlar təkcə idmanda deyil, başqa sahələrdə də uğurlar qazanacaq, xidmət müddətində daha da böyük inamla addımlayacaqlar.

- Kiçik yaşlarımdan hərbi həyata, idmana böyük həvəs göstərmişəm, - deyə əsgər Orxan Nəcəfli söhbətimizə qoşuldu. - Orta məktəbdə həm çağırışaqədərki hazırlıq fənnini dərin maraqla öyrənir, həm də məktəblilər arasında keçirilən "Şahin", "Üfüqdə parıltı", "Cəsurlar" hərbi idman oyunlarında fəal iştirak edirdim. Təmsil etdiyim komanda üzvləri həmişə yüksək göstəricilərə nail olur, uğurlar qazanırdı. İştirak etdiyim bu yarışlar hərbi sahəyə olan sevgimi daha da artırır, vətənpərvərlik hissimi daha da yüksəldirdi. Hərbi vətənpərvərlik yarışlarında iştirak edə-edə xeyli təcrübə qazandım, hərbi vərdişlərə yiyələndim. Qazandığım təcrübə fiziki hazırlıq məşğələlərində qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində köməyimə gəlir.

Daha sonra həmsöhbəti olduğum gənc əsgərlər verilən tapşırıqları böyük həvəslə yerinə yetirəcəklərini, hərbi sirlərə dərindən yiyələnəcəklərini və yurdumuzu göz bəbəkləri kimi qoruyacaqlarını dedilər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Qarabağ qazisi Braziliya Ciu-Citsusu üzrə dünya çempionu olub



İsveç Krallığında yaşayan Birinci Qarabağ müharibəsinin qazisi, 59 yaşlı soydaşımız Səfər Əliyev ABŞ-da böyük uğur qazanıb.

Las-Veqas şəhərində Braziliya Ciu-Citsusu üzrə keçirilən dünya çempionatında Səfər Əliyev rəqibi Skot Kukla qarşılaşıb. Rəqibi üzərində üstünlük əldə edən soydaşımız çempionatın qalibi olub.

"World Master" Braziliya Ciu-Citsu Federasiyasının təşkilatçılığı ilə Las-Veqas konfrans mərkəzində təşkil edilən dünya çempionatı 1-3 sentyabr tarixində baş tutub.

Qeyd edək ki, Səfər Əliyev 1991-ci ildə yaradılmış Naxçıvan Dövlət Müdafiə Komitəsinin ilk xüsusi təyinatlı bölməsində idman rotasının komandiri olub. Bu bölmə Naxçıvanın müdafiəsində ön sıralarda yer tutaraq, bir çox ağır döyüş əməliyyatlarında iştirak edib.

Soydaşımız İsveçin Partille şəhər bələdiyyəsinin məclis, Höteborq bölgəsi üzrə İnzibati və Miqrasiya məhkəməsinin münsiflər heyətinin, Qərbi Yöteland bölgəsinin səhiyyə komitəsinin üzvü Turan Əliyevin əmisidir.

## Azərbaycan parataekvondoçuları Qran-pridə 3 medal qazanıblar



Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin parataekvondo idman növü üzrə milli komandasının üzvü Sabir Zeynalov (58 kq) "Paris 2022 World Taekwondo" Qran-Prisinin gümüş medalına sahib olub.

Millimizin digər üzvləri İmaməddin Xəlilov (70 kq) və Əbülfəz Abuzərli (80 kq) Qran-Prinin bürünc medalını qazanıblar.

Beləliklə Qran-Pridə nəticə qazanmış idmançılar öz aktivlərinə əlavə reytinq xalları yazdıraraq Paris 2024 Yay Paralimpiya Oyunlarına lisenziya qazanmaq şanslarını artırıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Mayor Məmmədov Fərman Xubeli oğluna məxsus MN № 0052700 nömrəli, baş leytenant Şahmirzəyev Nurbala Elçin oğluna məxsus MN № 0053347 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizirlər Allahverdiyev Rişad Bəhlul oğluna məxsus SQ № 0008596 nömrəli, Hüseynov Məqsəd Hüseyn oğluna məxsus SQ № 0017554 nömrəli, İsmayılov Mahmud Süleyman oğluna məxsus SQ № 0010215 nömrəli, Museyibov Elvin Rəfail oğluna məxsus SQ № 0021662 nömrəli, Salahov Samir Sabir oğluna məxsus SQ № 0020089 nömrəli gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları - kiçik çavuşlar İsmayılov Telman Ayaz oğluna məxsus AD № 0041838 nömrəli və Cəlilov Ruslan Əli oğluna məxsus AD № 0010070 nömrəli, əsgərlər - Rəhimov Zahir Yasin oğluna məxsus AD № 0044872 nömrəli, İslamov Feyruz Dadaş oğluna məxsus AD № 0011871 nömrəli, Həsənov Heybət Azər oğluna məxsus AD № 0012493 nömrəli, İsmayılov Arif Gülbala oğluna məxsus AD № 0008337 nömrəli, Şərifov Cəlil Pənah oğluna məxsus AD № 0026567 nömrəli, Şirinov Səməd Əlikömək oğluna məxsus AD № 0056803 nömrəli, Əliyev Kənan Nazim oğluna məxsus AD № 0060075 nömrəli, Vəliyev Səməd Etibar oğluna məxsus AD № 0049107 nömrəli şəxsi vəsiqə və əsgər Məmmədov Nihad Elşad oğluna məxsus AD № 0056128 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Hüsniyyə İDRİSOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 843
Nüsxə 4660